

■ İnqilab İsaq

### NƏRGİZİN NƏRGİZLƏRİ

Qəribə qızdı Nərgiz
Bağçaya nərgiz əkib.
Sıralayıb gülləri,
Sığallayıb gülləri.
Həyət-baca gültəki,
Üzə gülür gül ləki.
Baba baxıb sevinir,
Nənə baxıb sevinir.
Şaxta, qarı unudub
Güllər əl-ələ tutub
Baharın dostlarıdı,
Nərgizin nərgizləri.

### NƏVƏLİ ŞEİRLƏR

I

Cəlalə, Təranə
Ağılı bacılar,
Nağıllı bacılar...
Saçları güzgülü,
Baxdıqca göz gülür.
Gördükcə babanı,
Gördükcə nənəni,
Sevincdən uçar ki,
Şadlanar bu qızlar.
Sarılıb onlara
Atlanar bu qızlar.
Şirincə, şəkərcə
Sözləri dil açar.
Güllərdən xəbərsiz
Gözləri gül açar.
....Cəlalə, Təranə,
Ağıllı bacılar,
Nağıllı bacılar.

II

Uşaqlar, uşaqlar,
Mehriban dostları.
Bağçada, həyətdə,
Tanıdım onları.
Bəlkə bir sizə də,
Tanıdım onları.
Pərişi deyirəm,
Toğrulun bacısı,
Gəlincik əlində
Oynayıb dincəlir.
Di gəl ki, Toğrulun
Durmaz ki, dinc əli.
Aşırır gülləri,
Aşırır güldanı.
Bu uşaq oyunda,
Gün boyu davakar.
Babanı, nənəni,
Elə ki, gördü o,
Bitirər davanı.
Üzündə təbəssüm...
Oyunun davamı....

III

Mirzə başqa Mirzədi,
Sözü başda Mirzədi.
Daraq gəzib telində,
Durub əli belində.
Bu ki, kişi qırığı
Sevməz ki, o, qılığı
Yıxılanda ağlamaz,
Yol açar, yol bağlamaz.
Yaşayır bahar üçün,
P[hrədi çinar üçün.
Günəşlə şəfəqlənər,
Sevgiylə ürəklənər.
Gülüşündə uşaqdı,
Yerişində qoçaqdı.

### UĞUR

Uğurlu addır - Uğur
Bu da niyyətdi, yoldu.
Deyil ki, adi uğur.
İndi körpə dilində,
Şirinləşib baldı söz.
Hər kəlmə sirr qatında,
Bir bax, min sualdı söz.
Ona uğur diləyir,
Babanın can-can sözü.
Nənə nağıllarında
Oyaqdı Cırtdan sözü.
Uğur - yoldu sabaha,
Yoluna günəş doğur.
Uğura, uğur olsun
Körpə yolçuya uğur!

### İLHAMIN YAŞIDI...

İlhamın bu yay ki,
Yaşıdı.
Kefi kök,
Yaxşıdı.
Bələkdən açılıb
Yol basır...
Ləngəri sağadı,
Soladı,
Nə yaxşı addımı
Yoladı....
Babası əl tutar,
Əlindən qopar o,
Yolların əlindən
Tutar o.
Az gedər, üz gedər
Yıxılar, düz gedər....
Sabahı görməyə.
...İlhamın
Bu yay ki, yaşıdı,
Adladı yaşını
Kefi kök, yaxşıdı...

### ANAMIN ADI ANA

- Ay Poladcan, Poladcan,
Nədi atanın adı?
- Atamın adı Eltac,
Bacımın adı Dəniz.
- Ananın adı nədi?
Fikrə getdi, bilmədi,
Çaşdı özü-özünə
Sevincək dedi: - Urra...
Baxdı oyan-bu yana.
Söylədi tapdım, tapdım.
Anamın adı - Ana!

### YANDIRDIM İŞIQLARI

Gözümü yumdum, baba,
İndi hər yan qaranlıq,
İndi hər yan gecədi.
Qaranlıqda qalıbdı
Bacım, anam, dovşanım...
Gözümü açdım, baba,
Yandırdım işıqları.
Çox sağ ol, canım, gözüm.
- Dur, tez işığa çağır,
Ay Polad, uşaqları.

### MƏNİM ADIM DƏNİZDİ

Bu mənəm, adım Dəniz,
Donum bəzəkli, qırçın,
Saçım hörmə, hörmədi.

Darıxıram qucaqda,
Tez düşürəm qucaqdan.
Adım niyə Dənizdi? -
Soruşurlar bayaqdan.
Bax, deyirəm sizlərə,
Mən atamın qızıyam.
Mən anamın qızıyam.
Onların əziziyəm,
Onların Dəniziyəm.

### BİR, İKİ...

Kənan keçib üç yaşına,
Öyrəndiyi hələ saydı.
Bir, iki...
O, beşə də iki deyir,
On beşə də...
Bundan özgə say bilmir ki?
Əllərini açıb, yumur
Gah irəli, gah da geri:
Bir, iki...
Əməllicə bilicidi,
Əməllicə say bilir ki...

### CAVİDİN YERİŞİ

Qucaqda
Durmur ki
Qucaqdı.
Dartınır
Yerisin,
Uşaqdı.
Qucaqdan
Qopmağa
Tələsir.
Addımlar,
Addımı
Aşırır.
Yerişi
Cavidə
Yaraşır.
Hələ ki,
Körpədi
Tuta-tut
Yerişi.
Yıxılıb
Durduqca
Yer eşir.
Qorxutmur
Cavidi
Yolların
Yoxuşu,
Yolların
Yenişi.

### HÜSEYNİN BAĞÇA ƏHVALATI

Bilirsənmi nə olub
Ata, bu gün bağçada.
Kövsər yalan danışıb,
Yalan eşidib ya da.

Uşaqların hamısı
İnciyibdi İncidən.
Odu bizi ağladan,
Odu bizi incidən.

Dilini dinc qoymur ha,
Bıldır-bıldır ötür o.
Amma bir şirin qızdı
Məni tez-tez öpür o.

Dostum Nicatdan olmaz,
Az danışıb çox yeyir.
"Gərək tezcə böyüyüm",
O, gonbul belə deyir.

İstəyirsən Süsəndən
Bir söz açım xəlvəti.
Aramızda qalsın ha,
Xəbər çıxmasın qəti.

Gülərin kitabına
Süsən xəlvət xətt çəkib.
Boyayıb dəftərini
Sonra ondan əl çəkib.

Eh, yoruldum, ay ata,
Sözüm bitməyib daha.
Bağçadakı söhbətin
Sonu qalsın sabaha.

### BAL KİMİ

Arılar uçdu, uçdu,
Uçdu, çəmən-obaya.
Güllər gülü çağırdı,
Səsi çatdı babaya.
Baba, arıçı baba...
Ədalətdi adı da.
Onun can-can sözündə
Baldan şirin balı var.
Uşaqlara, hamıya
Çoxluca sualı var...
Yalanı sevməz qoca,
Eşidər arı küsər.
Nənə də baba kimi,
Kövrələr, qarı küsər.
Qəlbi halaldan halal,
Baba bal kimi şirin.
Biz bunu bilməsək də -
Arı bilər bu sirri.

### TAMARA, TUNCAY

I

Tamara, babanın anası
Bəs kimdir bu adın adaşı?
Nəvəylə adları yanaşı
Siz ona doyunca baxın bir,
Gör necə şirindi, baldı ki,
Hər sözü yadımda qaldı ki.
Uşaqdı... nağılı gözlədi,
İşıqlı gözləri gözdədi.
Ulduzdu, ulduza qoşuldu,
Göyləri görməyi xoş oldu.
...Tamara babanın nəvəsi -
Bababın, nənənin qəlbində
Bu adla öyünür nəfəsi...

II

Tamara Tuncaya bacıdı,
Öpdükcə Tuncayı öpür o.
Nağılı dildədi, ötür o.
Qardaşı qəhrəman-pəhləvan,
Deyir ki, güclüyəm, zorluyam,
Atamın, anamın oğluyam.
Səs-küyə boylanır baba da,
Mürgüdən oyanır nənə də.
Toy-bayram başlanır yenə də,
Beləcə günlərə boy verib
Qaynayıb-qarışır uşaqlar,
"Dalaşıb" - barışır uşaqlar.

